# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

# ƏMR

№ F-78

Bakı şəhəri "14" İyul 2016 il

**Sənaye parklarında və ya məhəllələrində təlim və maarifləndirmə işlərinin aparılması ilə bağlı**

İqtisadiyyat nazirinin 2016-cı il 15 fevral tarixli F-13 nömrəli əmri ilə təsdiq edilmiş "Avropa Komissiyasının Azərbaycan Respublikasına "Regionların inkişafına dəstək Qrant Proqramı" ilə bağlı ayırdığı 19,5 milyon avro məbləğində qrant vəsaitinin Proqramın məqsədlərinə istifadəsi üzrə Tədbirlər Planı"nın İqtisadiyyat Nazirliyi üzrə icrasına dair Tədbirlər Planı"nın 2.5-ci bəndinin icrasının təmin olunması məqsədilə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.5.10-cu yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Sənaye parklarının və ya məhəllələrinin idarəedici təşkilatı və orada fəaliyyət göstərən sahibkarlar üçün təlim və maarifləndirmə proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Sənaye şöbəsinin müdiri Səməd Bəşirliyə və Bakı Biznes Tədris Mərkəzinin direktoru Akif Fərruxova tapşırılsın ki, bu əmrin 1-ci bəndində nəzərdə tutulan təlim və maarifləndirmə işlərinin həyata keçirilməsi üçün zəruri tədbirlərin görülməsini təmin etsinlər.

3. "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbova, "Təmiz Şəhər" ASC-nin İdarə Heyətinin sədri Etibar Abbasova və "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktoru Rövşən Nəcəfə tapşırılsın:

3.1. təlimlərdə iştirakı nəzərdə tutulan tabeliklərindəki əməkdaşlara və sənaye parkının və ya məhəlləsinin rezidentlərinin (iştirakçılarının), həmçinin potensial rezidentlərin (iştirakçıların) nümayəndələrinə dair məlumatların 2016-cı ilin 22 avqust tarixinədək Bakı Biznes Tədris Mərkəzinə təqdim olunmasını;

3.2. namizədliyi təqdim edilmiş şəxslərin qrafik üzrə təyin edilmiş vaxtlarda təlimlərdə iştirakını təmin etsinlər.

Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi
ƏSLİ İLƏ DÜZDÜR

4. Ümumi şöbənin müdiri Rövşən Ataşova tapşırılsın ki, bu əmrin surətinin göndərilmə siyahısına uyğun olaraq çatdırılmasını təmin etsin.

5. Bu əmrin icrasına nəzarət nazir müavini Niyazi Səfərova həvalə edilsin.

Əsas: nazir müavini Niyazi Səfərovun 2016-cı il 5 iyul tarixli İN-D/Y-10663/2016 nömrəli xidməti məruzəsi.

Nazir

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
ÜMUMİ ŞÖBƏ

Şahin Mustafayev

Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi
ƏSLİ İLƏ DÜZDÜR

Əlavə

**Sənaye parkının və ya məhəlləsinin idarəedici təşkilatı və orada fəaliyyət göstərən sahibkarlar üçün təlim və maarifləndirmə proqramı**

| № | Mövzu | Sənaye parkı və ya məhəlləsi | Tarixi |
|---|---|---|---|
| 1. | Sahibkarlığın inkişafına dövlət dəstəyi və investisiya təşviqi sənədinin verilməsi qaydası | Sumqayıt Kimya Sənaye Parkı | 2 sentyabr |
| | | Balaxanı Sənaye Parkı | 5 sentyabr |
| | | Neftçala Sənaye Məhəlləsi | 7 sentyabr |
| 2. | Sahibkarlara elektron xidmətlərin göstərilməsinin təşkil | Sumqayıt Kimya Sənaye Parkı | 9 sentyabr |
| | | Balaxanı Sənaye Parkı | 14 sentyabr |
| | | Neftçala Sənaye Məhəlləsi | 16 sentyabr |
| 3. | İnsan resurslarının idarə olunması və administrativ fəaliyyətin təşkili | Sumqayıt Kimya Sənaye Parkı | 19 sentyabr |
| | | Balaxanı Sənaye Parkı | 21 sentyabr |
| | | Neftçala Sənaye Məhəlləsi | 23 sentyabr |
| 4. | Lisenziyalaşdırma sahəsində həyata keçirilən tədbirlər | Sumqayıt Kimya Sənaye Parkı | 26 sentyabr |
| | | Balaxanı Sənaye Parkı | 28 sentyabr |
| | | Neftçala Sənaye Məhəlləsi | 30 sentyabr |